**Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 29 il ötür. Konstitusiya ən yüksək hüquqi qüvvəyə malikdir və dövlətin ali qanunudur. Dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin, vətəndaşların hüquq və azadlıqlarının əsaslarını təsbit edən ali sənəddir.**

uzaqgörən siyasəti və titanik fəaliyyəti nəticəsində respublikamızda sabitlik, əmin-amanlıq bərqərar olundu, ölkə tənəzzüldən tərəqqiyə doğru inkişaf yoluna qədəm qoydu. Yeni inkişaf mərhələsi qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan milli Konstitusiyanın hazırlanmasına və qəbuluna zəmin yaratdı.

İlk milli Konstitusiyamızın qəbulundan sonra müdrik dövlət xadiminin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə bütün sahələrdə ardıcıl, uğurlu islahatlar həyata keçirildi. Ölkənin siyasi, iqtisadi və sosial həyatında çox böyük dəyişikliklər baş verdi. Hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı.

Respublikamızda beynəlxalq standartlara uyğun məhkəmə-hüquq islahatları aparıldı, insan və vətəndaş hüquq və azadlıqların müdafiəsinə yönəlmiş qanunlar, digər qanunvericilik aktları, o cümlədən Ombudsman haqqında Qanun qəbul edildi. Eyni zamanda Azərbaycan bir sıra beynəlxalq konvensiyalara qoşuldu. Ümummilli liderin təşəbbüsü ilə 1998-ci ilin fevral ayında Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edildi.

Ötən illər ərzində dinamik, sürətli inkişaf nəticəsində ölkəmiz yeni mərhələyə yüksəlib. Müasir dövrün tələbləri Azərbaycan Konstitusiyasına vacib, əhəmiyyətli dəyişikliklər və əlavələrin olunmasını zəruri edib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsinə 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişikliklər olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da möhkəmləndirilməsindən, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiə edilməsindən irəli gəlirdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da referendum yolu ilə Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişikliklər ali dövlət və məhkəmə hakimiyyəti orqanlarının, bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan, vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

# Müstəqillik dövrümüzün ən Ali Qanunu




Müstəqil Azərbaycanın ilk Konstitusiyası dünyaşöhrətli siyasətçi, görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib. Əsas Qanun 1995-ci il noyabrın 27-də qüvvəyə minib. Hər il noyabr ayının 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd olunur.

Milli Konstitusiyamız müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa və sərbəst bazar iqtisadiyyatına təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi həyatında tətbiq olunan əsas normaları özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində hüquqi baza rolunu oynayan mükəmməl, mütərəqqi sənəddir.

1990-cı illərin əvvəllərində dövlət müstəqilliyinin bərpa olunduğu ilk vaxtlarda bütün sahələri bürümüş xaosdan, ölkəni parçalanma, məhvolma təhlükəsindən xilas etmək üçün xalq ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Məhz ümummilli liderin müdrik,

Ulu öndər bu barədə demişdir: *"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü-ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".*

Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyasının hazırladığı bitkin, əhatəli layihə 1995-ci ilin oktyabr ayında ümumxalq müzakirəsinə verildi. Qızğın və geniş müzakirələrdən sonra 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak edərək onların 91,9 faizi yeni Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi.

Xalqımız haqlı olaraq ilk milli Kostitusiyasımızı Heydər Əliyev Konstitusiyası adlandırır. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm, yaddaqalan hadisələrindən biri olmaqla yanaşı, ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısındakı müstəsna xidmətlərindən biridir.

Astara Pedaqoji Kollecində Konstitusiya Günü ilə əlaqədar silsilə tədbirlər keçirilir. Bütün tədris qruplarında milli Konstitusiyamız haqqında maarifləndirici söhbətlər aparılır, videoçarxlar nümayiş etdirilir.

Respublikamızın hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolunda inamla addımlaması onu iqtisadi, siyasi, sosial və mədəni sahələrdə yüksək zirvələrə doğru aparır. Xalqın hakimiyyət və qanunların icrası üzərində nəzarətə nail olması müstəqil dövlətimizin daha parlaq və uğurlu gələcəyindən xəbər verir.

**Azad ABDULLAYEV,**
**Astara Pedaqoji Kollecinin müəllimi, respublikanın qabaqcıl təhsil işçisi.**

Respublika .- 2024.- 12 noyabr (№ 248).- S.13.